BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Humanitar elmlər seriyası 2005*

# XIX ƏSRİN I YARISINDA ŞƏKİ ƏYALƏTİNİN ƏHALİSİNİN SOSİAL TƏRKİBİ

Z.Ə.CAVADOVA

XIX əsrin I yarısında Şəкi əyalətində yaşayan əhalinin sosial tərкibinin araşdırılması maraq doğuran problemlərdən biridir. Tədqiq olunan dövrdə əhalinin sosial tərкibində haкim təbəqəni ali müsəlman silкi - bəylər, ruhanilər, aşağı təbəqəni кəndlilərin müxtəlif кateqoriyaları dövlət, sahibкar, rəncbər və maaflar təmsil edirdi. Rusiya işğalından sonra vergi verən əhalinin sayının dəqiqləşdirilməsi məqsədilə həyata кeçirilən кameral təsvirlər XIX əsrin I yarısında Şəкi əyalətinin əhalisinin sosial tərкibini öyrənməyə кöməк edir. Bu baxımdan 1824-cü və 1842-ci ildə кeçirilmiş təsvirlər daha çox diqqəti cəlb edir.

Sənədlərdən aydın olur кi, 1824-cü ildə Şəкi əyaləti – Şəкi, Ərəş, Bum, Qutqaşın, Ağdaş, Xaçmaz, Padar və Alpout mahallarından ibarət idi. 1824-cü il Şəki əyalətinin kameral təsvirinin müvafiq materiallarına görə bəylərə mənsub olanlar hər iki cinsdən 1406 nəfər olmuşdu. Onlar əyalətin bütün əhalisinin 1,43%-ni əhatə edirdi. Ruhanilər 2990 nəfər olub bütün əhalinin 3,04 %-ni təşkil edirdi. Əhalinin əsas hissəsi dövlət kəndlilərindən ibarət idi. Onların sayı hər iki cinsdən 74518 nəfər (75,8%) idi. Sahibkar kəndliləri və rəncbərlər hər iki cinsdən 12755 (13%), 4005 (4,07%) idi. Maaflar ümumi əhalinin 2562 nəfərini (2,6%) təşkil edirdi (Cədvəl 1).

*Cədvəl 1*

**1824-cü ildə Şəki əyalətinin əhalisinin sosial- zümrə quruluşu**

| Mahallar | Ali müsəlman silki | | | | Kəndlilər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Bəylər | | Ruhanilər | | Dövlət | | Sahibkar | | Rəncbər | | Maaflar | |
| | Mütləq | Yekun nis. | Mütləq | Yekun nis. | Mütləq | Yekun nis. | Mütləq | Yekun nis. | Mütləq | Yekun nis. | Mütləq | Yekun nis. |
| Şəki ş. | 153 | 1,09% | 417 | 3% | 12271 | | | | 45 | 0,32% | 109 | 0,78% |
| Şəki | 82 | 0,24% | 649 | 1,92% | 28675 | 84,8% | 3469 | 10,2% | 501 | 1,48% | 416 | 1,23% |
| Ərəş | 109 | 2,31% | 182 | 3,86% | 3136 | 66,6% | 540 | 11,47% | 627 | 13,32% | 110 | 2,33% |
| Bum | 445 | 5,92% | 366 | 4,87% | 4519 | 60,17% | 612 | 8,14% | 361 | 4,80% | 1207 | 16,7% |
| Qutq | 259 | 2% | 370 | 2,85% | 8470 | 65,3% | 2581 | 19,9% | 972 | 7,5% | 304 | 2,3% |
| Ağdaş | 53 | 1% | 179 | 3,1% | 3064 | 53,6% | 1980 | 34,6% | 397 | 7% | 36 | 0,63% |
| Xaçm. | 187 | 1,58% | 528 | 4,47% | 8401 | 71,2% | 1865 | 15,8% | 463 | 4% | 353 | 3% |
| Padar | 42 | 1,35% | 159 | 5,11% | 2077 | 66,8% | 515 | 16,5% | 312 | 10% | 2 | 0,06% |
| Alpout | 76 | 1,61% | 140 | 2,96% | 2954 | 62,6% | 1193 | 25,3% | 327 | 7% | 25 | 0,53% |
| Cəmi: | 1406 | 1,43% | 2990 | 3,04% | 74513 | 75,8% | 12755 | 13% | 4005 | 4,07% | 2562 | 2,6% |

1842-ci ildə Nuxa qəzasında bəylərin sayı 1302 nəfərə (2,5%) enmiş, ruhanilərin sayı 3165 (3,05%) nəfərə çatmışdı. Dövlət kəndlilərinin sayı 83553 nəfərə (80,7%) idi. Buna müvafiq olaraq sahibkar kəndlilərinin və rəncbərlərin sayı 7366 (7,12%), 5666 (5,47%) olmuşdu. 1842- ci ildə maaflar 2391 (2,31%) nəfər idi (Cədvəl 2).

*Cədvəl 2*

**1842-cü ildə Nuxa qəzası əhalisinin sosial-zümrə quruluşu**

| Sahələr | Ali müsəlman silki | | | | Kəndlilər | | | | | | Maaflar | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Bəylər | | Ruhanilər | | Dövlət | | Sahibkar | | Rəncbər | | | |
| | Mütləq | Yekun nis.% | Mütləq | Yekun nis.% | Mütləq | Yekun nis.% | Mütləq | Yekun nis.% | Mütləq | Yekun nis.% | Mütləq | Yekun nis.% |
| Nuxa şəhəri | 141 | 1,04% | 354 | 2,62% | 12920 | 95,7% | - | - | 83 | 0,61% | - | - |
| Nuxa | 59 | 0,26% | 420 | 1,85% | 20275 | 89,7% | 1606 | 7,1% | - | - | 238 | 1,05% |
| Ərəş | 455 | 2,17% | 492 | 4,75% | 14442 | 69,2% | 460 | 2,2% | 4464 | 21,3% | 40 | 0,19% |
| Xaçmaz | 207 | 0,99% | 741 | 3,56% | 17494 | 84,1% | 875 | 4,2% | 1068 | 5,13% | 407 | 1,95% |
| Qəbələ | 440 | 1,71% | 658 | 2,55% | 18427 | 71,6% | 4425 | 17,2% | 51 | 0,19% | 1706 | 6,63% |
| Cəmi: | 1302 | 1,25% | 3165 | 3,05% | 83558 | 80,7% | 7366 | 7,12% | 5666 | 5,47% | 2391 | 2,31% |

Şəki əyalətində bəy adı əhalinin ən yüksək təbəqəsini təşkil edən adamlara şamil edilirdi. Bəylər öz dərəcələrinə, hüquq və vəzifələrinə görə, eyni zamanda tutduğu mövqeyə görə müxtəlif qruplara bölünürdü. Bəy adı ilk növbədə xanın övladlarına və yaxın qohumlarına aid edilirdi. Xalq arasında onlar Böyük bəy, Kiçik bəy, Böyük xan və s. kimi adlarla tanınırdı.

İkinci qrup bəylər Şəki xanlarından asılı vəziyyətə düşən Ərəş və Qəbələ sultanları, eyni zamanda onların nəsilləri idi. Xanlıqlar zamanı onlar xalqın içərisində çox böyük hörmət və nüfuz sahibləri hesab olunurdu. Onlar cəza vermək, cərimə etmək hüququna malik idilər və bir qayda olaraq mahallardan gələn gəlir hesabına yaşayırdılar. Öz hərəkətləri haqqında çox nadir hallarda xana hesabat verirdilər.

Sultanların hüquq və vəzifələri digər bəylərlə eyni idi. Lakin onlar yığıncaqlar zamanı başqa bəylərdən fərqli olaraq qabaq cərgədə oturur və xan ən mühüm tapşırıqları əsasən onlara verirdi. Sultan rütbəsi yalnız xanın icazəsi və razılığı əsasında irsi olaraq atadan oğula keçə bilərdi. Qəbələ və Ərəş sultanları ata-babalarından onlara miras qalan torpaqları yalnız xan tərəfindən təsdiq edildikdən sonra idarə edirdilər. Xan bəzən bir sıra nüfuzlu bəyləri sultan rütbəsinə qaldırırdı.

Məliklər bəylərin digər qrupuna daxil idi. Ərəş mahalında onların idarəçiliyində bir neçə kənd olmasına baxmayaraq əyalətdə çox böyük üstünlüyə malik deyildilər. Onlar həmişə sultan və mahalları idarə edən bəylərdən asılı olub müstəqil göstəriş vermək hüququndan məhrum idilər. Əvvəllər məliklərin başlıca vəzifəsi xan tərəfindən müəyyən edilmiş vergi və mükəlləfiyyətlərin vaxtlı-vaxtında yerinə yetirilmə sinə nəzarət etmək idi.

Öz mülkiyyətində müəyyən torpaq sahələri olan mülkədar bəylər və tiyuldar bəylər də var idi. Bu qrupa daxil olan bəylər

xüsusi xidmət müqabilində xandan bəy adı alır və çox zaman xalq içərisində böyük nüfuz və hörmət qazanırdı. Bəzən xan maaflarını bəy rütbəsinə qaldırırdı.

Nəhayət, elə hallar da olurdu ki, xan quldurluq və digər qorxulu əməllərlə məşğul olan adamları bəy kimi tanımaq məcburiyyətində qalırdı.

Dərəcəsindən asılı olmayaraq bəy adını daşıyanlar təliqə adlanan xüsusi fərmana sahib olmalı idi. Bəylər bütün vergi və mükəlləfiyyətlərdən azad olub, xəzinədən aldıqları məvacib, yaxud idarə etdikləri ərazilərdən gələn gəlir hesabına yaşayırdılar. Bəzən xan xüsusi xidmət müqabilində bəylərə bütöv kəndlər bağışlayırdı. Bəylər eyni zamanda xana vergi vermədən ticarət edə bilər və digər işlərlə məşğul ola bilərdilər.

Xanlıqların ləğvindən sonra Şimal-Qərbi Azərbaycanda xan ailəsinin üzvləri, o cümlədən, bəylərin bir çoxu mülkiyyət hüququndan məhrum edildi. Rusiya hökumətinin siyasətindən narazı qalan və düşdüyü ağır vəziyyətlə barışmaq istəməyən bəy və ağalar itirilmiş hüquqlarını geri qaytarmaq uğrunda mübarizə aparırdılar. 1825-ci ilin sentyabr ayında Şəki əyalətində yerli bəylər 45 kəndi bürümüş xalq üsyanını təşkil etmişdilər.

Rusiya işğalı dövründə və işğaldan sonra çarizm müsəlman əyalətlərində ali müsəlman silkinin nümayəndələrinə tam düşmən mövqedən yanaşaraq tiyul torpaq sahibliyini ləğv etməyə çalışır, bəylərin dövlət qulluğundan və idarə işlərindən bütünlüklə uzaqlaşdırılmasını zəruri sayırdı. 30-cu illərdə bəylərin hüquqları ilə bağlı məsələlər rəsmi dairələrdə geniş müzakirə edilirdi. Bu müzakirələr zamanı bəylərə məxsus olan torpaqların müsadirə edilməsi və bu torpaqlarda rus zadəganlarının yerləşdirilməsi nəzərdə tutulurdu. Çox maraqlıdır ki, sosial- siyasi və silki hüquqlar baxımından müsəlman zadəganlığı istər rus, istərsə gürcü zadəganlığına bərabər tutulmurdu. 13 iyul 1830-cu il buyruğu Rusiyanın bəylərə qarşı tutduğu sərt siyasətin azacıq da olsa dəyişdiyini göstərirdi. Qafqazda genişlənən azadlıq mübarizəsi çarizmi ali müsəlman silkinə qarşı düşmən mövqedən uzaqlaşmağa və yerli feodallarla ittifaqa girməyə məcbur edirdi. Məhz 1846-cı il 6 dekabr qanunu tiyul torpaq sahibliyinin ləğv edilməsi cəhdini boşa çıxartdı. Bu qanunla Rusiya işğalı dövründə bəylərin irsi idarəsində olan torpaqlar üzərində onların tam mülkiyyət hüququ rəsmi şəkildə ilk dəfə olaraq tanındı.

Əhalinin sosial tərkibində ruhanilər mühüm yer tuturdu. Xanlıqlar dövründə ruhanilər böyük siyasi, iqtisadi nüfuza malik olub, dövlət idarəçiliyndə fəal iştirak edir, məhkəmə və maarif işlərini tamamilə öz əllərində saxlayırdı. Rusiya işğalından sonra ruhanilər öz əvvəlki mövqeyini itirməyə başladı. Çarizmin ruhaniliyin sayını azaltmaq, onların hüquq və imtiyaz-larını məhdudlaşdırmaq, siyasi və iqtisadi gücünü sarsıtmaq üçün həyata keçirdiyi tədbirlər ciddi müqavimətlə qarşılandı. İşğalın əvvəlindən müsəlman ruhaniliyi çarizmə qarşı yönələn azadlıq mübarizəsinin

önündə gedir, bəzən bu mübarizənin təşkilatçısı olurdu. 1814-ci il Şəki üsyanının işti-rakçıları içərisində müsəlman ruhaniləri fəal iştirak edirdilər. Çar məmuru Prujanovski Nuxa qazısı Əbdül Lətif Əfəndinin keçmiş İlisu sultanı Daniyal bəylə, nuxalı Süleyman xan-la əlaqə saxlaması, Cəfərqulu ağa ilə Mehdiqulu xanı barışdırmağa çalışması barədə yazaraq bildirirdi ki, Əbdül Lətif Əfəndi Şuşa qazısı Əbdül Qasımla birgə 1844-cü il Şuşa həyəcanlarını təşkil etmişdi. Nuxa qazısı Azərbaycanın bütün nahiyələrini gəzərəк insanları üsyana çağırırdı.

Əhalinin sosial tərkibində maaflar mühüm yer tuturdu. Xanlıqlar zamanı maaflar müəyyən xidmət müqabilində vergi və mükəlləfiyyətlərdən azad edilmiş adamlar idi. Onlar müharibələr zamanı öz atları və silahları ilə xan qoşununun tərkibində hərbi əməliyyatlarda iştirak etməli, polis funksiyasını daşımalı, yerli rəislərin göstərişlərinə əməl etməli idi.

Maaflıq hüququ xandan xüsusi xidmət müqabilində alınırdı. Bəzən xan bu adı ayrı-ayrı adamlara nüfuzlu bəylərin xahişinə əsasən verirdi. Elə hallara da təsadüf olunurdu ki, bəzi maaflar feodalların qəzəbinə gələrək bütün hüquqlarından məhrum edilərək vergi və mükəlləfiyyətləri ödəyən kəndlilərin sırasına qayıtmalı olurdu.

Şəkidə xan üsul-idarəsinin ləğv edilməsindən sonra onların vəzifələri dayandırıldı. Bu zümrə bir müddət əvvəlki kimi vergi və mükəlləfiyyətlərdən azad edilməsinə baxmayaraq uzun müddət maaflar heç bir xidmətə göndərilməmişdi. Yalnız 1834-cü ildə Varşavaya göndərilmək üçün müsəlman atlı polku təşkil edilən zaman maafların bir hissəsi yerli əhali ilə birlikdə bu polkun tərkibinə daxil edilmişdi. Onlar yaşadıqları mahallar tərəfindən silah, at, geyim və sursatla təchiz olunmalı idi.1837-ci ildə Şəki əyalətindən 200 maaf Quba üsyanını yatırmaq üçün göndərilmiş, 1839-cu ildə isə 94 maaf Dağıstan sərhədinə gözətçiliyə təyin edilmişdi. 40-cı illərdə maaflar vergi verən kəndlilərin sırasına daxil edildi.

Azərbaycanın digər ərazilərində olduğu kimi, Şimal-Qərbi Azərbaycanda da tədqiq etdiyimiz dövrdə əhalinin sosial tərkibində mühüm yeri kəndlilər tuturdu. Bu dövrdə kəndlilər əsasən dövlət, sahibkar kəndlilərinə, rəncbərlərə və köçəri kəndlilərə (elat) bölünürdü. Dövlət və sahibkar kəndliləri istifadə etdikləri torpağın müqabilində onun sahibinə vergi verir və müəyyən mükəlləfiyyətlər daşıyırdılar. Xanlıqlar dövründə şəxsi təsərrüfata malik olmayan rəncbərlər dövlətə vergi verməkdən azad idi. Şəki əyalətində rəncbərlər adətən başqa xanlıqların ərazisindən qaçan kəndlilər idi. Bu kəndlilər bəylərin, ruhanilərin, yüzbaşıların himayəsinə sığınırdı. Onlar rəncbərlər üçün ev tikir, onları evləndirir, təsərrüfat fəaliyyəti üçün lazım olan hər şeyi edirdilər. Rəncbərlər yerləşdikləri torpağın sahibinə hər cür xidmət göstərməyə borclu idi. Lakin rəncbərlər yerləşdikləri torpaqdan tamamilə asılı vəziyyətə düşmürdü. Onlar öz ağalarından narazı qaldıqda baş-qa əraziyə qaça bilərdi. Ağanın qaçan kəndlini öz yanına qaytarmaq hü-

ququ yox idi. Bəzən xanlar öz yaxın adamlarına xəzinə torpaqlarında yerləşmək üçün bir neçə ailəyə torpaqla yanaşı rəncbərlərin özlərini də hədiyyə edirdilər. Şəki əyalətində elə hallara da təsadüf olunurdu ki, kasıbçılığa düşmüş rəiyyətlərdən bəziləri öz xüsusi əmlakını güclü bəylərdən kiməsə satır və özləri də onların rəncbərinə çevrilirdi.

Şəki əyalətində yalnız bəylərin deyil, ruhanilərin, yüzbaşıların, həmçinin Nuxa vətəndaşlarının da kəndliləri olurdu. Bəylərin öz kəndlilərini satmaq, girov qoymaq və başqasına bağışlamaq hüququ yox idi.

Şəki əyalətində rəiyyət və rəncbərlərdən başqa ayrı-ayrı bəylərə məxsus köçəri kəndlilər də var idi.

## СОЦИАЛЬНЫЙ СОСТАВ НАСЕЛЕНИЯ ШЕКИНСКОЙ ПРОВИНЦИИ В ПЕРВОЙ ПОЛОВИНЕ XIX ВЕКА

### АННОТАЦИЯ

З.А.ДЖАВАДОВА

Социальный состав населения Шекинской провинции в первой половине XIX века является одной из проблем, вызывающих интерес. В этот период население, населяющее провинцию состояло из высшего мусульманского сословия и крестьян. В высшее мусульманское сословие входили беки и священники. А крестьяне подразделялись на государственных, помещичьих крестьян и ренджберов (переселяющихся крестьян). В статье исследован социальный состав населения Шекинской провинции. Посредством составленных таблиц вносится ясность в проблему.